# Mənəvi mədəniyyətimiz xalq yazıçısı Əli Vəliyev yaradıcılığında

Mənəvi mədəniyyətin əsas qollarından biri şifahi xalq yaradıcılığı, yaxud folklordur. Onu yaradan, düzən-qoşan, araya-ərsəyə gətirən xalqın tarixi qədər qədim olan şifahi xalq yaradıcılığı bədii incilər xəzinəsidir. Burada xalqın tarixi keçmişi, məişət tərzi, adət-ənənəsi, dünyabaxışı bütün cizgiləri ilə geniş şəkildə təsvir olunmuşdur.

Xalqımızın yaratdığı folklor inciləri-dastanlar, əfsanələr, nağıllar, bayatılar, laylalar, aşıq poeziyası, atalar sözü və məsəllər, tapmacalar, gülməcələr, sınamalar, inamlar, alqış və qarğışlar və s. əsrdən-əsrə, nəsildən-nəslə, yaddaşdan-yaddaşa keçərək bu günümüzə qədər gəlib çatmışdır. Mövcud nümunələr etnoqrafik ədəbiyyatda "ağız ədəbiyyatı", "el ədəbiyyatı", "el yaradıcılığı", "xalq ədəbiyyatı", "folklor" və s. formasında qeyd edilməkdədir.

Biz bu yazımızda mənəvi mədəniyyətimiz işığı altında, görkəmli ədib Ə.-Vəliyev yaradıcılığında yer alan və etnoqrafik baxımdan maraq doğuran bayatılardan qısaca söhbət açmağı qarşımıza məqsəd qoymuşuq.

**Bayatılar**

Xalq yaradıcılığının mühüm və geniş yayılmış qollarından biri bayatılardır. Qısa və yığcamlığı ilə diqqət çəkən, dərin fəlsəfi, əxlaqi, ictimai fikirlər ifadə edən bayatılar haqqında bir sıra alim, şair və yazıçılarımız qiymətli fikirlər söyləmiş, hətta yeri gəldikcə öz əsərlərində bu zəngin xəzinədən geniş şəkildə istifadə etmişlər. Bayatı "xalqımızın həyatı, tariximizin, taleyimizin yol yoldaşı, sirr sirdaşıdı. Əsri əsrə calayan, minilliklərdə silinməz izi qalan, gələcəyə ümidlə boylanan hikmət dünyası, millətimizin cahana bəxş etdiyi şah əsəridi". Bayatılar nənələrimizin əbədiyaşar yaddaş saxlancı, analarımızın, gəlinlərimizin beşik nəğməsi, dildə duası, dədələrimizin, ərlər-ərənlərimizin siyirmə qılıncı, sazı, havası-havacatı, oğullarımızın vətənə, el-obaya vurğunluğu, eşq, məhəbbət "dəliliyi"di, qızlarımızın könül çırpıntısı, saf, müqəddəs duyğuları, sevgisi, sevincidi. Bayatılar dünənimizin bu günümüzə daşınması, bu günümüzdən sabahımıza mənəvi körpümüzdü.

Bədii yaradıcılığında bayatıların xüsusi yer tutduğu, tez-tez müraciət olunduğu ədiblərdən biri də Azərbaycan folklorunun mahir bilicilərindən olan görkəmli xalq yazıçısı Əli Qara oğlu Vəliyevdir. Onun Qarabağ əhalisindən toplayıb yazıya gətirdiyi bu bayatılarda xalqımızın ailə məişəti, adət-ənənəsi, maddi və mənəvi mədəniyyəti, təsərrüfat həyatı, dünyagörüşü, həsrəti, vüsalı, sevgisi, sevinci, dərdi, kədəri və s. əksini tapmışdır. Bəziləri istisna olmaqla, demək olar ki, bu bayatıların əksəriyyəti Azərbaycanın bütün bölgələrində yayılmışdır. Sinəsi ağı, bayatı, holavar, sayaçı nəğmələri, atalar sözləri, el məsəlləri ilə dolu olan, aşıb-daşan, xalq dilini mükəmməl bilən ədib yazıya aldığı bayatılardan yerli-yerində istifadə etmiş, onu dönə-dönə əsərlərinə salmaqla ömrünü uzatmış, təzədən bir də yaddaşlara, xalqın dilinə, istifadəsinə qaytarmışdır. Onun əsərlərindən topladığımız, etnoqrafik baxımdan maraqlı olan və ailə məişətini, sevən könüllərin duyğularını, hiss-həyəcanlarını təcəssüm etdirən aşağıdakı bayatıların dəyəri böyükdür:

Aşiqindir sarı qız,
Sarı köynək, sarı qız.
Sinəm tabutun olsun,
Saçın ilə sarı qız!

Aşiqəm, o yar mənim,
Qəm bağrım oyar mənim.
Məkkəmdir, Mədinəmdir,
Qibləmdir o yar mənim.

Mən aşiq, Güləbürdə,
Şeh düşə, gülə bir də.
Qurban ollam o yara,
Danışa, gülə bir də.

Bu dərədən köç gedər,
Qaşqa madyan boş gedər.
Məni ərə versələr,
Allaha da xoş gedər.

Tüfəngini yaxşı at,
Yaxşı doldur, yaxşı at.
İgidin başın ucaldar
Yaxşı arvad, yaxşı at.

Dağların təzə qarı,
Əriməz təzə qarı.
Arvadı bəd olanın
Saqqalı tez ağarı.

Arançı budu gəldi,
Şalvarın yudu gəldi.
Qızlara xəbər olsun,
Oğlanlar budu gəldi.

Məlumdur ki, qışı qışlaqda, aranda, öz ev-eşiklərində keçirən əhali yay aylarında yaylağa çıxar, alaçıqlarda yaşayardılar. Kənddə qalan cavan oğlanlar isə təsərrüfat işlərini başa vurduqdan sonra onlar da yaylağa gedərdilər. Ədib yuxarıdakı "Arançı budu gəldi" misrası ilə başlanan bayatıda məhz buna işarə etmişdir.

Akademik Teymur Bünyadovun dediyi kimi, hikmət, heyrət dünyası, könüllər mülkünün şahı, sultanı, beşik laylası, son mənzilin harayı olan bayatıların müəyyən qismi həsrət göynərtili, ayrılıq, hicran yanğılıdır. Eşq, məhəbbət iztirabını, sevən könüllərin taledən şikayətini, insanların zəmanədən, dünyadan, fələkdən narazılığını, giley-güzarını, təklik-tənhalıq qüssəsini, el-oba, vətən nisgilini, ayrılıq hıçqırtısını, arzu-istəyini təcəssüm etdirən bayatılar bütün zamanlarda ürək tellərini əsdirmiş, sızlatmış, bu bəlaya düçar olanlara ağrılı, kədərli anlar yaşatmışdır. Xalq həyatını dərindən bilən, onun sevincini, kədərini içərisindən keçirən, xoş gününə sevinən, acısına kədərlənən Ə.Vəliyev əsərlərində əhali arasından topladığı bu tipli bayatılardan da istifadə etmişdir:

Mən aşıq, lala yalqız,
Gül bitər, lala yalqız.
Qorxuram qərib öləm,
Məzarım qala yalqız.

Quşum uçdu tüləkdən,
Qolum sındı biləkdən.
Bizimki düz gəlmədi,
Çarxı dönmüş fələkdən.

Apardı tatar məni,
Qul elər, satar məni.
Vəfalı yarım olsa,
Axtarıb tapar məni.

Aşıq, yaza nə qaldı,
Xalın yazana qaldı.
Qələmdə nə günah var,
İnsaf yazana qaldı.



Mən aşiq, Güləbirdə,
Şeh düşə gülə bir də.
Bir quş olub uçaydım,
Qonaydım Güləbirdə.

Mən aşıq qızılcığa,
Şəkiyə, Qızılcığa.
Bir tərlan itirmişəm,
Boynunda qızıl cığa.

Dağlara çən düşəndə,
Gül üstə nəm düşəndə.
Dağlar könlümü açar
Yadıma sən düşəndə.

Getmə, getmə dayan, dur,
Sirrim sənə əyandır.
Gəlişin qurbanıyam,
Gedişin nə yamandır.

Bu yollar cada yollar,
Sir verməz yada yollar.
Dədəm haçan gələcək,
Nə vaxtdır vədə, yollar?

Mən aşıq, səfa gəldin,
Xoş gəldin, səfa gəldin.
Nə biz öldük qurtardıq,
Nə sən insafa gəldin.

Məni bir huş apardı,
Araza tuş apardı.
Çiynimi kəndir kəsdi,
Ayağımı daş apardı.

Dağların döşünə bax,
Qar yağıb başına, bax.
Mən sevdim, yad apardı,
Fələyin işinə bax.

Aşıq, naçar ağlama,
Gecə keçər, ağlama.
Bu qapını bağlayan
Bir gün açar, ağlama.

Corabın ağına bax,
Dəstələ, bağına bax.
Mən yadına düşəndə
Gorusun dağına bax.

Mən səni el bilirdim,
Saçımda tel bilirdim.
Uca dağlar başında
Qurumaz göl bilirdim.

Yetiməm, atam yoxdur,
Qəribəm, butam yoxdur.
Düşmüşəm qəm dərgahına,
Qolumdan tutan yoxdur.
Gəl gedək daş bulağa,
Suyu sərin xoş bulağa.
Sən dərdli, mən yaralı,
Tökək qan-yaş bulağa.

Bayatını həmişə ayrılıq odunda, nisgilində qovrulanlar daha çox dilə gətirmiş, təsəllini onu deməklə, oxumaqla, zümzümə etməklə tapmışlar. Bu xüsusda ədibin yazıya aldığı "Eşqabdal" rəvayəti həm etnoqrafik baxımdan maraqlı, həm də bayatının çəkisini, sambalını və kədər yükünü dolğunluğu ilə xəyalımızda canlandırandı:

"Guya bir dövlətlinin Eşq adlı gözəl qızı yoxsul oğlan Abdala aşiq olur. Dövlətlinin oğlanları Abdala sifariş göndərirlər ki, bizim bacımızla yaxınlıq eləməsin. Hərgah sözümüzü eşitməsə, özünü ölmüş bilsin. Bir gün toran çalan vaxt Eşqlə Abdal indiki ocağın yerində görüşürlər. Eşq qardaşlarının təklifini Abdala yetirəndə bülbül kimi cəh-cəh vurur. Deyilənlərə görə, Eşqin səsi eşidiləndə, bütün camaat həyətə çıxıb qulaq asır, Eşq isə qara su yuxarı gedə-gedə oxuyur. Qəşəng səsi evlərinə çatanda qardaşının üçü də silahlanıb onun yanına yola düşürlər. Eşq isə məhzun-məhzun oxuyur:

Əzizim al məndən,
Yaşıl sənsən, al məndən.
Ya dərdimə şərik ol,
Ya bu canı al məndən.

Bu sözləri deyəndən sonra ağlaya-ağlaya geri qayıdıb Abdalın qucağına qısılır, başını onun sinəsinə sıxır. Abdal isə onu möhkəm-möhkəm bağrına basıb saçlarını tumarlayır. Ay axşamdan doğduğu üçün çöllər süd gölündə üzür, hər şey aydın görünürmüş. Sevgililər qucaqlaşıb, bir-birinin nəfəsini udub toxdadığı zaman üç qardaş, siyirmə xəncər, onlara tərəf cumur. Yaxınlaşdıqca gözlərinə inanmır, gördüklərinə təəccüb eləyirlər. Bir az qabaq oğlanla qızın durduğu yerdə üstündə yenicə açılmış qönçə olan qözəl gül kolu, dibində isə boynunu bükük həsrətlə gözəl gülə baxan bənövşə görürlər. Qardaşlar evə qayıdıb hadisəni danışırlar. Bu danışıq ağızdan-ağıza gəzir, obadan-obaya adlayıb mahalları dolaşır, şəhərlərə çatıb məhəllələrdə cövlan eləyir. Beləliklə, iki gəncin nakam məhəbbətinə ürəkdən acıyıb onları yad eləmək üçün burada bina tikirlər. Hər vaxt onları ziyarət etmək məqsədilə buraya gəlirlər". Deyilənə görə, elə o vaxtdan həmin yer "Eşqabdal ocağı, ziyarətgahı" adlanır.

Məlumat üçün deyək ki, Ə.Vəliyev bayatıların əksəriyyətini Sarı Aşığın yurdundan-Güləbird kənd əhlindən topladığını da qeyd etmişdir. Bu bayatıların bir çoxuna mərhum şair-alimimiz Hüseyn Kürdoğlunun tərtib etdiyi və redaktoru olduğu "Sarı Aşıq" bayatılar kitabında rast gəlməyimiz də elə bunun təzahürüdür. Ədibin əsərlərində istifadə etdiyi bayatıların müəyyən qismi Azərbaycanın müxtəlif bölgələrində məlum olsa da, bəzən bənzərsiz, təkrardan uzaq könül incilərinə də rast gəlinir. Bu bayatıların isə mövzusu rəngarəngdir və onların etnoqrafik baxımdan tədqiqini vacib sayırıq.

*Bahar* Əmənova
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Tarixi etnoqrafiya şöbəsinin elmi işçisi*